# Multikulturalizm Azərbaycanın dövlət siyasətidir

## *Şəmkirdə yaşayan azsaylı xalqların nümayəndələri ilə görüş*

Respublikamızın digər bölgələri kimi Şəmkir rayonunda da azsaylı xalqların nümayəndələri yaşayır. Onlar doğulub boya-başa çatdıqları bu bölgəni özlərinin ikinci vətəni hesab edirlər. Xeyirdə, şərdə yerli sakinlərə qaynayıb-qarışan bu insanlar Azərbaycanla həmişə fəxr etdiklərini, eləcə də bu ölkənin vətəndaşı olmaqdan qürur duyduqlarını söyləyirlər.



“Multikulturalizm ili” çərçivəsində keçirilən görüşdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Alimpaşa Məmmədov diqqətə çatdırdı ki, multikulturalizm Azərbaycanın dövlət siyasəti və həyat tərzidir. Ölkəmizdə milli və dini azlıqlarla bağlı aparılan dövlət siyasəti həmişə beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilir. Bu sahədə əldə olunan təcrübə başqa dövlətlər üçün nümunə göstərilir.



Görüşdə o da diqqətə çatdırıldı ki, bu gün Şəmkirdə 16 millətin nümayəndəsi mehriban şəraitdə yaşayır və qətiyyətlə demək olar ki, milli zəmində heç bir problem yoxdur. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan bu siyasəti Prezident İlham Əliyev uğurla davam etdirir. Ölkəmizin və xalqımızın sahib olduğu multikultural dəyərlərin, tolerantlıq ənənələrinin beynəlxalq ictimaiyyətə təqdim edilməsində Heydər Əliyev Fondunun, onun prezidenti Mehriban xanım Əliyevanın da əməyi böyükdür. Fondun dəstəyi ilə Azərbaycan multikultural ənənələrinin qorunub saxlanmasında əhəmiyyətli layihələr həyata keçirilir.

Rayonda yaşayan azsaylı xalqların nümayəndələri bildirmişlər ki, yerli sakinlər kimi onlar da dövlətin verdiyi bütün imtiyazlardan istifadə edirlər, aldıqları pay torpaqlarının əkib-becərilməsində verilən güzəştlərdən yararlanırlar.

Görüşdə Şəmkir şəhərində yaşayan və rus millətindən olan Valentina Popova bu rayonda anadan olub, boya-başa çatdığını, Azərbaycanda ali təhsil aldığını diqqətə çatıraraq dedi ki, hazırda o, Cahangir Rüstəmov adına tam orta məktəbdə müəllim işləyir.

Bayramlı kəndinin sakini, ukraynalı, şəhid anası Lyuba Cəfərova oğlunun Azərbaycan torpaqlarının azadlığı uğrunda şəhid olduğunu və bununla fəxr etdiyini söylədi. Oğlu Tofiq Cəfərovun oxuduğu məktəbin hazırda onun adını daşıdığını bildirdi.

Yəhudi millətindən olan Bilqo Davidov isə çıxışında azərbaycanlıların istiqanlılığından, mehribanlığından danışdı. Qeyd etdi ki, bu mehribanlığın və istiqanlılığın şahidi olduğu üçün 30 il öncə azərbaycanlı qızla ailə qurub və çox xoşbəxtdir.

Zəyəm qəsəbəsində yaşayan polyak Andrey Ataşevski, alman Yunus Hacıyev, Zəyəm-Cırdaxan kəndində yaşayan və qaraçı millətindən olan Marina Belaşiva çıxış edərək Azərbaycanda yaşadıqlarına görə özlərini xoşbəxt hesab etdiklərini qeyd etdilər və yaradılan şəraitə görə ölkə başçısına minnətdarlıqlarını bildirdilər.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***